ISSN-1680-1245

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
MINISTRY OF EDUCATION THE REPUBLIC OF AZERBAIJAN

SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ
СУМГАИТСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ
SUMGAYIT STATE UNIVERSITY

55

# ELMİ XƏBƏRLƏR

## *Sosial və humanitar elmlər bölməsi*

*CİLD 13 № 2*

Sumqayıt - 2017

ISSN-1680-1245

**SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ**
**СУМГАИТСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**
**SUMGAYIT STATE UNIVERSITY**

***Sumqayıt Dövlət Universitetinin 55-illiyinə həsr olunur***

# ELMİ XƏBƏRLƏR
# НАУЧНЫЕ ИЗВЕСТИЯ
# SCIENTIFIC NEWS

***Sosial və humanitar elmlər bölməsi***
***Серия: Социальные и гуманитарные науки***
***Series for Social and Humanitarian Studies.***

**Cild 13** **2017** **№ 2**

**Sumqayıt – 2017**

Sumqayıt Dövlət Universiteti
Elmi Xəbərlər. Sosial və Humanitar bölmə

## REDAKSİYA HEYƏTİ

| | |
|---|---|
| ELXAN HÜSEYNOV | **Baş redaktor**, fəlsəfə elmləri namizədi, professor, rektor |
| RAMAZAN MƏMMƏDOV | **Baş redaktor müavini**, filol. üzrə elmlər doktoru, professor, elm və innovasiyalar üzrə prorektor |
| YUSİF ASLANOV | **Məsul katib**, pedaqogika elmləri namizədi, dosent |

## REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ

### Dilçilik

| | |
|---|---|
| **Nizami Cəfərov** | AMEA-nın müxbir üzvü, filol.elmləri doktoru, professor |
| **Aslan Bayramov** | filol.elmləri doktoru, professor |
| **Buludxan Xəlilov** | filol.elmləri doktoru, professor |
| **Əzəmət Rüstəmov** | filol.elmləri namizədi, dosent ***(məsul redaktor)*** |

### Ədəbiyyatşünaslıq

| | |
|---|---|
| **Rafiq Əliyev** | filol.elmləri doktoru, professor |
| **Nigar İsgəndərova** | filol.elmləri doktoru, professor ***(məsul redaktor)*** |
| **Məhərrəm Qasımlı** | filol.elmləri doktoru, professor |
| **Fikrət Rzayev** | filol.elmləri doktoru, professor |
| **Sevinc Həmzəyeva** | filol. üzrə fəlsəfə doktoru, dosent |

### Tarix

| | |
|---|---|
| **Adil Baxşəliyev** | tarix elmləri doktoru, professor |
| **Şirxan Səlimov** | tarix elmləri doktoru, professor ***(məsul redaktor)*** |
| **Həsən Sadıqov** | fəlsəfə elmləri doktoru, professor |
| **Əziz Məmmədov** | fəlsəfə elmləri doktoru, professor |
| **Maya Rəhimova** | tarix elmləri doktoru, professor |

### İqtisadiyyat

| | |
|---|---|
| **Ziyad Səmədzadə** | akademik |
| **Əli Nuriyev** | AMEA- nin müxbir üzvü, iqtisad elmləri doktoru prof. |
| **Albert Tağıyev** | iqtisad elmləri namizədi, dosent ***(məsul redaktor)*** |

### Pedaqogika, psixologiya, metodika

| | |
|---|---|
| **Rüfət Hüseynzadə** | pedaq.elmləri doktoru, professor |
| **Rəfiqə Mustafayeva** | pedaq.elmləri doktoru, professor |
| **Ramiz Əliyev** | psixolog.elmləri doktoru, professor |
| **Aytəkin Məmmədova** | pedaq. üzrə fəlsəfə doktoru ***(məsul redaktor)*** |

Təsisçi: Sumqayıt Dövlət Universiteti
"Elmi xəbərlər" jurnalı Azərbaycan Respublikası Təhsil Nazirliyinin 19.07.2004-cü il tarixli, 46-16-3547/17 saylı əmrinə əsasən nəşr edilir.
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alınmışdır.
Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə elmi nəşrlər siyahısına daxil edilmişdir.

Учредитель: Сумгаитский государственный университет
Журнал «Научные Известия» издается на основании приказа 46-16-3547/17 Министерства Образования Азербайджанской Республики от 19.07.2004-го года.
Зарегистрирован Министерством Юстиции Азербайджанской Республики.
Включен в список научных изданий Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики.

Founded by Sumgayit State University
The Journal of "Scientific News" is published due to the order № 46-16-3547/17 of the Ministry of Education of the Republic of Azerbaijan dated 19.07.2004.
It has been registered by the Ministry of Justice of the Republic of Azerbaijan.
It has been included to the list of scientific publications of the Supreme Attestation Commission under President of the Republic of Azerbaijan.

Məqalələrin tərtibatı qaydaları ilə SDU-nun rəsmi saytında www.sdu.edu.az tanış olmaq olar.
С правилами оформления статей можно ознакомиться на официальном сайте СГУ www.sdu.edu.az.
Please, see the website SSU www.sdu.edu.az in order to be familiar with the proper design of the articles.

© Sumqayıt Dövlət Universiteti, 2017

UOT 612.821

# İNCƏSƏNƏT TERAPİYASI

**KƏRİMOVA MƏLƏK FERUZ qızı**
*Xəzər Universiteti, doktorant*
*e-mail: mkerimova@khazar.org*

***Açar sözlər:** incəsənət, psixologiya, incəsənət terapiyası,emosiya və hislər, mənəvi ehtiyaclar*

İncəsənətin nə olduğu və nə üçün ehtiyac duyulduğu hər zaman aktual suallardan biri kimi qarşıya çıxmaqdadır. İncəsənət mədəniyyətin bir sahəsi kimi əsrlərə, cəmiyyətlərə, millətlərə görə öz məzmununda dəyişikliklərə məruz qalsa da, bəşər tarixinin hər mərhələsində öz əhəmiyyətini qorumağı bacarmışdır. Sənət əsərini digər əsərlərdən fərqləndirən cəhətin, sənətkarı da digər insanlardan fərqli edən xüsusiyyətlərin nə olduğu hər zaman insanı düşündürmüşdür. Sənət əsərində öyrədici, tərbiyəedici xüsusiyyətlərlə yanaşı, yüksək estetik həzzin yaşanması, insanın daxili aləminə nüfuz etməsi onu özünəməxsus edir. İncəsənət yüksək estetik həzz yaşadaraq insanın mənəvi tələbatlarını ödəyir. Estetik həzz və görüntü incəsənəti hər zaman cəzbedici və ehtiyac hiss edilən sahəyə çevirmişdir [5]. Orteqa-i-Qassetə görə, yeni incəsənət qocalmış dünyada insanı həyatın ciddiliyindən xilas etməyə, cavanlaşdırmağa çalışır, həmişə gənc qalmış ideyaları təbliğ edir [1]. Morenonun da qeyd etdiyi kimi, hər bir insanın daxilində səssiz bir musiqi quyusu, ortaya tökülməmiş görünməz sənət, donmuş hərəkət və fantaziyalarımızda da hərəkət var [9]. Milli sənət nümunələrindəki simmetrik naxışlar da, ornamentlərin çəkilməsi də özünəməxsus meditasiya kimi qiymətləndirilə bilər. M.Ö. 12.000 il əvvəl Qobustan qaya rəsmlərində əks olunan rəqs edən insan fiqurları da musiqi və rəqsin çox qədim zamanlardan etibarən türk xalqlarında istifadəsinin bariz nümunəsidir. Daxili konfliktlərin idarə edilməsi və yenidən yaşanmasında incəsənətin rolu böyükdür. Yaradıcılığın inkişaf etdirilməsi və şəxsiyyətin inkişafı üçün incəsənət sublimasiya və transformasiyadır.

İncəsənətdə fəaliyyət və ünsiyyət prosesinin qarşılıqlı vəhdəti üçün şərait yaranır. Bu da insanın şəxsiyyətə çevrilməsi və həyatını daha dolğun yaşaması üçün əhəmiyyətlidir.İncəsənəti fəaliyyət sahəsi kimi qiymətləndirməklə yanaşı, cəmiyyətə, insanlara təsir edən hər bir faktorun bu sahəyə təsirini qeyd etmək zəruridir. İncəsənət nümunəsi onu ortaya qoyan şəxsin xarakterindən, yaradıcı potensialından asılı olmaqla bərabər, sənətkarın yaşadığı cəmiyyətin və əsrin təzahürlərini də özündə əks etdirməsi labüddür.

İncəsənət sadəcə lüks fəaliyyətdən daha çoxunu ifadə edir. Sənət insan ruhunun ehtiyacıdır. İnsanlar ən çətin şərtlərdə hətta həbsxanada belə sənətlə məşğul olmaq istəyiblər. Bəşər tarixinə baxdığımız zaman müxtəlif millətlərin etnopsixoloji xüsusiyyətlərinin məhz onların incəsənət nümunələrində əks olunduğunu görərik.

İncəsənət əsəri istər rəsm, istər bədii əsər, istər heykəl və s. olsun, bizi bir anlıq onun ərsəyə gəldiyi dövrə və ortaya qoyan şəxsin daxili dünyasına səyahətə çıxarır.

İncəsənət bir çox elm sahəsinin inkişafına təkan vermişdir. İncəsənətin psixologiya elmində bir terapiya üsulu kimi istifadə edilməsi də bunun bariz nümunəsidir. İncəsənət terapiyasının tarixi çox da qədim deyil. Naumburg və Kramer incəsənət terapiyasında önəmli isimlərdən hesab olunurlar. Naumburg pasiyentləri ilə münasibət qurmaq üçün təsviri incəsənətdən istifadə edir. Kramer isə təsviri incəsənəti öyrədərkən onun müalicəvi əhəmiyyətindən danışır.

İncəsənət terapiyasında şəxsin fəallığı və fəaliyyəti ilə yanaşı, hazır məhsula olan qavrayışına da şərh verilir. Başqa bir ifadəylə desək, aktiv və passiv incəsənət terapiyası anlayışları da diqqəti cəlb edir. Aktiv incəsənət terapiyası müstəqil yaradıcı fəaliyyət göstərməsi üçün pasiyentə təkan verir. Passiv terapiya isə mövcud olan əsəri analiz və interpretasiya edir.

İncəsənət terapiyasında klinik modelin daha çox psixosomatik, psixoloji pozuntulara istiqamətləndiyi, psixodinamik modelin insana xəstə kimi baxdığı psixi cinsi inkişafın bütün mərhələlərində konfliktlərin öyrənilməyə çalışıldığı, humanist yanaşmada sağlam insanlarla işləməyə üstünlük verildiyi, holistik ya da transpersonal yanaşma modelində şüurun universal fenomen kimi ələ alındığı görülməkdədir.

Psixoterapiyanın bir növü kimi istifadə edilən incəsənət terapiyası termini ilk dəfə 1938-ci ildə ortaya atılmışdır. Termini ilk dəfə Adrian Hill istifadə etmişdir. Adrian Hill Kral VII Edvardın sanatoriyasında vərəm xəstələri ilə aparılan işi belə adlandırmış və şəkil çəkən xəstələrin bunu sadəcə zaman keçirmək məqsədi ilə etmədiklərini görmüş, şəkil çəkmənin onların narahatlıqlarını və yaşadıqları travmaları ifadə etmək üçün bir vasitə olduğunun şahidi olmuşdur [2]. 1940-50–ci illərdə incəsənət terapiyası psixoterapiyanın bir növü kimi istifadə edilməmiş, yalnız müalicəyə cavab verməyən pasiyentlər üçün alternativ yol olaraq istifadə edilmişdir. İncəsənət terapiyası bir neçə elmin qovşağındadır. Bu elmlərə ədəbiyyat, musiqi, rəqs, heykəltaraşlıq və rəqs daxildir. İncəsənətin müxtəlif növlərinin psixoloji konsultasiya prosesində istifadəsi üçün əsaslı faktlar çoxdur. Belə ki, incəsənət terapiyası sosiallaşma prosesi üçün əhəmiyyətli olmaqla yanaşı, inkişafetdirici, psixoprofilaktik xüsusiyyətlərə malikdir. İncəsənət terapiyası yaradıcı fəaliyyətlə sıx bağlıdır. Musiqi, rəqs, psixodram, sosiodram bunun növləridir. İncəsənət terapiyası öz metodikaları olan bir sahəyə çevrilmişdir.

**İncəsənət terapiyasının əsas məqsədi** şəxsin emosiya və hisslərini ifadə etməsi, öz fərdiliyini, təkrarolunmazlığını, dəyərliliyini hiss etməsi, dəyişən dünyaya daha asan adaptasiya olması, psixi gərginliyi aradan qaldırması, incəsənətlə məşğul olarkən insanın özünü uğurlu hiss etməsinin təmin edilməsidir.

İncəsənət terapiyası zamanı sənətin müxtəlif növləri ilə özünü ifadə edən şəxs şəxsi təcrübəni genişləndirərək, mənəvi cəhətdən inkişaf edir, sosial etnik mədəni reallıqlarla üzləşir, fantaziya və reallıq arasında körpü qurur [10]. İncəsənət terapiyasında spontanlıq çox əhəmiyyətlidir. Terapiyada incəsənətin hansı növünün istifadə edilməsindən asılı olmayaraq, şəxsin çox vaxt olduğu kimi özünü ifadə etməsi diqqət çəkir.

İncəsənət terapiyası vasitəsilə pasiyentin aqressiv, şüuraltına atdığı duyğularının sosial cəhətdən qəbul edilə bilən şəkildə ifadə edilməsi terapiyanin sürətlənməsinə kömək edir. İnsanın yaşadığı çətinlikləri və sıxıntıları sözlə ifadə etməsi çətinləşdiyi zaman incəsənət numunəsinə daxili gərginliyin ötürülməsi asan olur. Pasiyentlər daxili gərginliklərini sənət əsərində ifadə etdikləri zaman aqressiya və zərərverici duygular azalır. İncəsənət terapiyası zamanı duyguların manesiz olaraq incəsənət əsərində ifadə edilməsi onun fərqinə varılmasına və, bir başqa deyişlə, simvollaşdırılmasına kömək edir. Bu da pasiyentin daxili nəzarətini və nizamını gücləndirir.

İncəsənət terapiyası insanın özünün fərqinə varması, özünü ifadə etməsi, şəxsiyyətin inkişafı və tarazlığı üçün əhəmiyyətlidir. Hər bir insanda yaradıcılıq potensialı var və bu, insana böyük məmnuniyyət gətirir. İncəsənət terapiyasında insanın ifadə etmədiyi hiss və həyəcanlar daha yaxşı ifadəedilmə fürsəti tapır. Uşaqlarda emosional sferanın ilkin diaqnostikası üçün təsviri incəsənət önəm qazanır. Şəkil çəkərkən uşaqlarda kiçik motorikanın inkişafı ilə yanaşı, məkanla əlaqədar təfəkkür, qavrayış, göz, əl koordinasiyası əhəmiyyətli olur. Təbii ki, burada rənglərin seçilməsi və əhəmiyyəti də öz aktuallığını qoruyur.

İncəsənət terapiyasında hiss, həyəcan, arzu və istəklər qeyri-verbal yolla ifadə vasitəsi kimi də qiymətləndirilə bilər. Beynin üzərində aparılan tədqiqatlar nəticəsində sağ və sol beyin yarımkürələrinin informasiyanı fərqli şəkildə işlədiklərini ortaya qoymuşdur. Hər hansı məlumatı öyrənərkən beynin hər iki yarımkürəsi istifadə edilsə də, adətən, bir hissə digərinə görə üstünlük təşkil edir. Sol beyin yarımkürəsi nitq, kateqoriyalaşdırma, problem həll etmə kimi xüsusiyyətlərdən, sağ yarımkürə isə ətrafı bütöv və vizual qavramada həssasdır. Sağ beyin şəkilləri, yerləri və məsafələri daha yaxşı qavramaqda, sol beyin isə dil, hadisələrə məntiqi nəticələr çıxararaq yanaşmada ustadır. Sağ beyin yarımkürəsi yaradıcı, vizual, musiqini, rəngləri qavrayarkən və emosiyalar zamanı aktivləşərkən, sol yarımkürə danışıq, sözlərin tələffüzü, məntiq, riyaziyyat kimi məsələlərdə aktiv olur. Müasir dünyada biz daha çox beynin sol yarımkürəsindən istifadə edirik. Son illərin tədqiqatları beynin hər iki sahəsinin vəhdətinin önəmli olduğunu ortaya

çıxarmışdır. Məhz incəsənətlə məşğul olarkən beynin hər iki tərəfi birliktə fəaliyyət göstərərək şəxsin nəinki zehni inkişafına, həm də emosional dünyasına müsbət mənada təsir göstərir.

**İncəsənət terapiyasında vasitələr.** İstənilən yaradıcı işdə "simvolik" oyun əhəmiyyət daşıyır. İncəsənət terapiyasında istifadə ediləcək olan vasitələrin əhəmiyyəti çoxdur. Belə ki, pasiyentdə seçmə şansının ola bilməsi üçün rəngli kağız, parça, plastilin, qum, miniatur oyuncaqlar və s. təqdim edilməkdədir. Pasiyent tərəfindən nəyin seçiləcəyi terapiyanın dinamikası ilə yanaşı, pasiyentin şəxsiyyəti və ruhi vəziyyəti ilə əlaqəlidir.

İncəsənət terapiyası ilə məşğul olan şəxsin aşağıdakı suallara verəcəyi cavablar əhəmiyyətlidir. Pasiyent özünü necə ifadə edir? Nəyi ifadə edir? Hansı formada ifadə edir? İfadə edilən məzmun qrupa və insana necə təsir edir (əgər qrupla tətbiq edilən incəsənət terapiyasıdırsa)? [12]

İncəsənət terapiyasında pasiyentin sənət nümunəsində özünü ifadə etməsi seansın daha çox hissəsini əhatə edərkən üzərində işlədiyi əsərin ifadə edilməsi daha az müddəti ehtiva edir [11]. İncəsənət terapevti, pasiyent və onun tərəfindən ortaya qoyulan əsər bu terapiyada çox əhəmiyyətlidir. Bu üç tərəf terapiya prosesində daima bir-birinə qarşılıqlı əlaqədə olur. İncəsənət və terapiyanın ortaq kökləri var. Hər iki sahədə şəxsin nəzəri bilikləri ilə yanaşı, müəyyən qabiliyyətlərə sahib olması vacibdir. Terapiya prosesində də pasiyentlər müxtəlifdir və ifadə edilən problemlər də müxtəlif olmaqda, bu da öz növbəsində psixoloqun situasiyanı yaradıcı şəkildə dəyərləndirərək uyğun yanaşma tərzini seçməsi üçün əhəmiyyətlidir. Bu mənada da incəsənət terapevti olmaq istəyən şəxslər incəsənətə maraq duymaqla yanaşı, bu sahədə nəzəri və praktik olaraq təhsil almalıdır. Amerika İncəsənət Terapiya Assosiasiyası incəsənət terapevti olacaq şəxlərin bakalavr təhsili üzərinə ən az 60 kreditlik dərs keçdikdən sonra art terapevt kimi fəaliyyətini qəbul edir. Bu dərslər məzmun etibarı ilə incəsənətin müxtəlif növləri ilə tanışlığı, yaradıcılıq prosesini, psixoloji inkişaf, incəsənət terapiyasında psixodiaqnostika, qrup terapiyası, tədqiqat metodları kimi dərsləri əhatə edir. Eyni zamanda supervizor nəzarətində 100 saatlıq şəxsi təcrübə, 600 saatlıq klinik təcrübənin keçirilməsindən sonra incəsənət terapevti olma hüququnu verir. (https://arttherapy.org) Dünya təcrübəsinə baxıldığı zaman yalnız incəsənət terapiyası üzrə magistratura təhsili tamamlandıqdan sonra bu sahədə işləmə hüququnun əldə edildiyi görülür. Təəssüf ki, ölkəmizdə çox zaman bu terapiyanın incəliklərini və elmi-nəzəri əsaslarını bilmədən tətbiq etdiyini iddia edən insanlara rast gəlmək mümkündür. Beləliklə, zəngin mədəni irsə mailk olan ölkə kimi bu sahəni ölkəmizdə düzgün bir şəkildə inkişaf etdirmək, ixtisaslı kadrlar yetişdirmək artıq zərurət halını almalıdır. Əks halda insanlara vurulan psixi yaraların nəticələri ağır ola bilər. Bu terapiyanı tətbiq edərkən milli xüsusiyyətlərin də pasiyent, terapevt və təqdim edilən əsərdə yeri olacağını unutmamaq lazımdır. Son olaraq, incəsənət terapiyası sahəsində peşəkar bacarıqların artırılması üçün nəzəri və praktik təcrübənin zəruriliyi qeyd edilməlidir.

İncəsənət terapiyası sahəsində aparılan tədqiqatlar ümumiləşdirilərək qeyd olunmalıdır ki, incəsənət terapiyası istənilən yaşda və müxtəlif pozuntuları olan şəxslərlə işləmədə effektiv yollardan biridir. Bu terapiya üsulu pasiyentin yaradıcılığını təşviq etməklə yanaşı, terapiya zamanı onun sıxılmamasına və daxili narahatlıqlarının yaratdığı sənət əsərində əks etdirilərək psixi sağlamlığını və tarazlığını qorumasına kömək edir.

## ƏDƏBİYYAT


1. Abbasova Q.S., Hacıyev Z.C. Sosial fəlsəfə. Dərslik. Bakı: Ayna, 2001, 130 s.
2. Birgül Aydın Tıbbi Sanat Terapisi, Psikiyatride Güncel Yaklaşımlar 4(1):69-83 doi:10.5455/cap.20120405, 2012.
3. Edwards D. Art Therapy. London, Sage Publications, 2004.
4. Əsədov A. Gözəlliyin fəlsəfəsi: mahiyyət və onun cismani təcəssümü spiritualist aristokratizm işığında. Bakı: Nurlan, 2005, 498 s.
5. Əlizadə H. Estetika. Red. E.Zamanova; AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, Bakı: Elm, 2007, 380 s.
6. Göktepe Ayşe Kaya. Sanat terapiyası. İstanbul, 2015, 144 p.
7. Kar Özge Heykel Anasanat Dalı, Heykel ve Sanat Terapisi. Mersin Üniversitesi, 2011.

8. Malchiodi C.A. Breaking the silence: Art therapy with children from violent homes. New York: Brunner/Mazel,1990.
9. Moreno JJ. Içimizdeki Müziği Eylemek. Müzik Terapisi ve Psikodrama. (Çeviri Ed İ Doğaner) İzmir: Atadost Matbaacılık, 2001
10. Корытин А.И. Арт-терапия. Новые горизонты, М.: Когито-центр, 2006, 336 с.
11. Копытин А.И. Хрестоматия. Серия Арт-терапия. СПб.: Питер-Санк, 2001, 320 с.
12. Копытин А.И., Беверли Корт. Техники телесно-ориентированной арт-терапии. Психотерапия. М.: Психотерапия, 2011, 125 с.

## РЕЗЮМЕ
## АРТ-ТЕРАПИЯ
***Керимова М.Ф.***

*Ключевые слова: искусство, психология, арт-терапия, эмоции и чувства, духовные потребности*

Несмотря на то, что искусство как часть культуры на всех этапах человечества подвергалось изменениям, оно не перестаёт заявлять о своей значимости и заставляет людей раздумывать. В статье исследуется роль искусства, как инструмента переживания, наслаждения и получение людьми высоких эстетических удовольствий, а также удовлетворения своих духовных потребностей. Наряду с этим в статье исследуются вопросы, связанные с проникновением искусства во внутренний мир человека. Наряду с этим в статье отмечается важная роль искусства как терапевтического метода в области психологии, взаимосвязь искусства, терапии и пациента, а также необходимость обращения внимание на возникшие проблемы при использовании данного метода в области психологии.

Завершается научное исследование вопросом о необходимости развития данного метода в нашей стране и подготовке квалифицированных кадров в этой области.

## SUMMARY
## ART THERAPY
***Kerimova M.F.***

*Keywords: Art, psychology, art therapy, emotions and feelings, spiritual needs*

The article covers the issues like how art makes people think and how art has preserved its importance at every stage of human history regardless of the changes in its context it was subject to. Art`s role inmeeting the spiritual needs of a person, giving him a high aesthetic pleasure, its power to peneterate the inner world of a person are studied in this article. At the same time the questions like why there is a need to art therapy, a brief history of its development, its importance in the field of psychology as a therapy method, goals and issues provided in the therapy were investigated in this paper. The process of art therapy covers the topics as art therapist, patient and work provided by him, the interaction between art and therapy and qualities that should be taken into consideration to become an art therapist. In conclusion, the importance of development of this field in our country and training of qualified personnel were highlighted.

Daxilolma tarixi: İlkin variant 06.04.2017
Son variant 21.06.2017